## CİNSİ YOLLA KEÇƏN YOLUXUCU XƏSTƏLİKLƏR

- Qonoreya (tripper-süzənək)
- Sifilis
- Gentral herpes
- Xlamidioz
- Trixomoniaz
- Kandidoz
- Papilloma virus infeksiyası



## CİNSİ YOLLA KEÇƏN YOLUXUCU XƏSTƏLİKLƏR AŞAĞIDAKI YOLLARLA ÖTÜRÜLƏ BİLƏR:

- Cinsi akt zamanı
- Qeyri-steril tibbi alətlərdən istifadə edilməsi ilə
- Xəstənin qanı ilə kontaktda olduqda
- Tək-tək hallarda xəstələrin məişət və şəxsi gigiyena əşyalarından istifadə etdikdə

## CİNSİ YOLLA KEÇƏN YOLUXUCU XƏSTƏLİKLƏRİN ƏSAS ƏLAMƏTLƏRİ:

- Cinsi orqanların ətrafında qaçınma və yandırma hissiyatı;
- Çox tez-tez və ağrılı sidik ifrazı;
- Cinsi orqanlardan qeyri-adi görünüşlü və qoxulu selik ifrazının olması;
- Cinsi orqanlar və anal dəlik (anus) sahəsində qızartının olması;
- Bədəndə səpkilərin əmələ gəlməsi;
- Cinsi orqanlarda və anal dəlik ətrafında, ağızda, dodaqlarda xoraların, suluqlu qabarcıqların və sızanaqların meydana gəlməsi;
- Limfatik düyünlərin (əsasən qasıq nahiyəsində) böyüməsi;
- Qadın və kişilərdə qarının aşağı hissəsində ağrıların yaranması: Qadınlarda cinsi əlaqə zamanı uşaqlıq yolunda olan ağrılar, aybaşılar arası dövrdə uşaqlıq yolundan qan qarışıqlı ifrazatın olması.



## BULARI BİLMƏK VACİBDİR!

- Xəstəliyə yoluxan zaman ginekoloqa (qadınlar), uroloq-androloqa (kişilər) və ya dermato-veneroloqa (dəri-zöhrəvi xəstəlikləri üzrə mütəxəssis) müraciət etməlidir;
- Yadda saxlamaq lazımdır ki, cinsi yolla keçən yoluxucu xəstəliklər gizli şəkildə də keçə bilər;
- Ailə qurmaq istəyində olan hər bir cütlük (həm kişi, həm də qadın) bu infeksiyalara görə tam müayinədən keçməli və lazım gəldikdə müalicə kursu almalıdırlar. Bu gələcəkdə sağlam uşaq olmasını planlaşdıran hər bir cütlük üçün çox vacibdir!
- Cinsi yolla keçən yoluxucu xəstəliklər müalicə olunmazsa və ya onun müalicəsi düzgün aparılmazsa, onlar xroniki, gizli formaya keçərək bir sıra fəsadlar törədə bilərlər: sidik yolları və daxili cinsiyyət üzvlərinin iltihabı xəstəlikləri, kişilərdə impotensiya, kişilərdə və qadınlarda sonsuzluq və s.
- Həkimə müraciət edən hər-bir posiyentin anonimliyi mütləq qaydada saxlanılır!

## CİNSİ YOLLA KEÇƏN YOLUXUCU XƏSTƏLİKLƏRDƏN NECƏ QORUNMALI?

1. Yüksək yoluxma riski olan insanlarla (fahişılır, homoseksuallar, narkomanlar) cinsi əlaqələrdən çəkinin;
2. Cinsi əlaqədən əvvəl əmin olun ki, sizin partnyorunuzda zöhrəvi xəstəliklərin zahiri əlamətləri yoxdur (cinsiyyət orqanlarında səpki, şübhəli ifrazat və s.);
3. Cinsi yolla keçən bütün infeksiyalar həmçinin oral və anal cinsi əlaqə zamanı da ötürülə bilər;
4. Prezervativdən istifadə edin, onu bilavasitə cinsi aktdan əvvəl taxmaq lazımdır;
5. Dərhal cinsi əlaqədən sonra, antibakterial sabun və ya antiseptik məhlul ilə (miramistin, xlorqeksidin) bütün qasıq nahiyyəsini yuyun (fikir verin, bütün nahiyyəni, tək cinsiyyət orqanını deyil). Prezervativdən istifadə etdiyiniz halda belə əlaqədən sonra mütləq sidiyə gedin-bu cinsi infeksiyalar ilə yoluxma riskini azaldacaq;
6. “Özünü diaqnostika və özünü mqalicə” ilə məşğul olmayın, dəqiq diaqnozu yalnız bu sahənin müvafiq mütəxəssisi təyin edə bilər;
7. Heç bir halda özgənin paltarlarından, eləcə də özgənin dəsmallarından, hamam lifindən və digər şəxsi gigiyena vasitələrindən istifadə etməyin.
8. Ictimai ayaq yolundan necə istifadə etmənizə diqqət yetirin. Bu halda kişilər üçün riayət etməli olduğu iki qayda var:

- cinsiyyət orqanınızı tutacağınız əlinizlə ayaq yolunun qapısını açmayın;
- əgər əl-üz yuyan varsa, ondan əllərinizi yalnız sidiyə gedendən sonra deyil, həm də əvvəl yuyun.



Asan qaydalara riayət edərək, cinsi infeksiyalar ilə yoluxma riskini azaltmaq və özünüzü və öz yaxınlarınızı ciddi problemləərdən qoruya bilərsiniz. Yadda saxlayın ki, cinsi infeksiyalar sonsuzluğa və cinsi zəyiflik probleminə həm də ölümə səbəb ola bilər.

Regional mərkəzlərlə iş şöbəsi: (99412) 498 94 02

AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

# CİNSİ YOLLA KEÇƏN XƏSTƏLİKLƏR